**Azərbaycan**. - 2024.- 2 iyul. - № 135. - S. 8.

# Azərbaycan "yaşıl enerji"yə keçiddə qərarlıdır

## COP29-da bu, bütün dünyaya bir daha nümayiş olunacaq

**Züleyxa Əliyeva**

1992-ci ilin iyun ayında Rio de Janeyroda keçirilən dünya sammitində 154 dövlət tərəfindən imzalanan İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası həyati əhəmiyyətli olduğunu ilbəil sübut edir. Konvensiya iqlimi qorumaq adına ilk beynəlxalq qanun kimi də xarakterizə edilə bilər.

1995-ci ildə isə BMT-nin ilk İqlim Dəyişikliyi Konfransı keçirilmiş və 150-dən artıq dövlətin nümayəndəsi istixana qazı emissiyalarının azaldılması məsələlərini və dövlətlərin müvafiq öhdəliklərini müzakirə etmək üçün Tərəflərin Birinci Konfransına toplanmışlar. Müzakirələrin leytmotivi 2000-ci ilə kimi emissiyanın miqdarının 1990-cı il səviyyəsinə endirilməsi olmuşdur.

O gündən sonra 30 ilə yaxın keçən dövr ərzində iqlim dəyişikliyi planetdə siyasi ağırlıqlı məsələyə çevrilib. İllərdir dünya iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizəyə qalxıb. İqtisadyönümlü olsa da, bu mübarizənin önündə siyasi qərarlar dayanıb. Ölkələrin müzakirələr nəticəsində verilən qərarların qeyd-şərtsiz yerinə yetirmək vəzifəsi yaxınlaşmaqda olan qlobal fəlakətlə mübarizənin mühüm şərtinə çevrilib. Həmin şərtə əməl etmək ilk növbədə inkişaf etmiş ölkələrin bir nömrəli vəzifəsi olub, kimsə bundan qaça bilməz. Fakt: 2020-ci ildə Donald Tramp ABŞ-ni Paris müqaviləsindən geri çəkdi. Amma cəmi bir il sonra Co Bayden hakimiyyətə gələrkən Paris müqaviləsi yenidən qüvvəyə mindi və hətta ABŞ Prezidenti bildirdi ki, bu məsələ təcili olaraq fəaliyyətə başlamağı tələb edir. Yəni ABŞ kimi bir dövlətin belə, iqlim dəyişikliyi ilə mübarizədə "nəyi necə istəyirəm elə edəcəm" şıltaqlığı keçmir. Çünki iqlim dəyişikliyi sıradan problem deyil, o, "domino effekti" yaratmağa qadir bəladır.

Məlumdur ki, atmosferə buraxılan zəhərli qazların miqdarına görə üstünlük inkişaf etmiş ölkələrin üzərinə düşür və iqlim dəyişikliyinin fəsadlarına ən çox məruz qalan dövlətlər də məhz onlardır. Elə bu yerdə qeyd edək ki, Azərbaycan iqlim dəyişikliyinə qarşı mübarizədə istər ölkədaxili, istərsə də beynəlxalq müstəvidə davamlı addımlar ataraq bütün dünya üçün örnək sərgiləyir. Bunu bir neçə ay əvvəl Prezident İlham Əliyev Almaniyada Olaf Şoltsla birlikdə keçirdikləri mətbuat konfransında da söyləmişdir: "Neft və qaza sahib ölkələr haqqında hansısa miflər yaradılmamalıdır, bu ölkələr iqlim məsələlərinin həlli üçün çox böyük səylər göstərir". Sözsüz ki, Azərbaycan bu dövlətlərin sırasında ön yerdədir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsi də sübut edir ki, Azərbaycan sahib olduğu zəngin karbohidrogen ehtiyatlarının fonunda iqlim dəyişikliyinə qarşı mübarizədə hansı rolu oynayacağını yaxşı bilir.

Neft-qaz ehtiyatları təbiətdən gəlir və buna insan iradəsi müdaxilə edə bilməz, yəni bu ehtiyatlara sahib olmaq ölkəmizin seçimi deyil. Amma, məsələn, "yaşıl enerji"yə keçid bizim öz seçimimizdir. Belə ki, bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi dövlətimiz üçün prioritet istiqamətlərdəndir və 2030-cu ilə kimi elektrik enerjisində bərpaolunan enerjinin payının 30 faizə çatdırılmasının hədəflənməsi mühüm əhəmiyyət kəsb edir. Bunu işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma işlərində də müşahidə etmək mümkündür. Qarabağın "yaşıl enerji" zonasına çevrilməsi istiqamətində verilən qərarlar sürətlə icra edilir. Həmin sürəti təmin edən səbəblərdən biri Azərbaycanın bərpaolunan enerji ilə bağlı qabaqcıl xarici şirkətlərlə əməkdaşlıq etməsi və onların təcrübəsindən faydalanmasıdır. Ölkəmizin coğrafi məkanının zəngin külək, günəş enerjisi potensialına malik olduğu nəzərə alınarsa, bu əməkdaşlıq ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə də töhfə verir.

COP29-un keçirilməsinə təxminən dörd ay qalmasına baxmayaraq, Azərbaycandan kənarda da bu qlobal toplantı ilə bağlı tədbirlər keçirilir. Bir ay öncə BMT-nin Bonnda keçirilən Beynəlxlq İqlim Konfransında COP29-da müzakirə olunacaq məsələlərlə bağlı bəzi qərarlar qəbul edilib. İqlim, Enerji və Resurs Təhlükəsizliyi üzrə Avropa Klasterinin (EUCERS) Təhlükəsizlik, Strategiya və İnteqrasiya üzrə Təkmil Araşdırmalar Mərkəzinin (CASSIS) Tədqiqat şöbəsinin rəhbəri, NATO-nun Enerji və İqlim Təhlükəsizliyi üzrə məsləhətçisi Frank Umbax deyib: "Bonnda keçirilən BMT-nin Beynəlxalq İqlim Konfransı irəliyə doğru yalnız təvazökar addımlar və nəticələr verdi. Ən vacib sual G7 kimi daha zəngin ölkələrin yoxsul ölkələr üçün kifayət qədər maliyyə təmin edib-etməyəcəyi və yoxsul ölkələr üçün illik 100 milyard dollar məbləğində maliyyələşdirmə hədəfinin Bakıda keçiriləcək növbəti COP29 iqlim sammitində dəyişdirilib-dəyişdirilməyəcəyidir. İkinci sual: Çin, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Hindistan kimi digər dünya iqtisadi gücləri də üçüncü dünya ölkələri üçün pul ödəməyə hazırdırmı? Artıq "inkişaf etməkdə olan ölkə" deyil, dünyanın ən böyük iqtisadiyyatı və texnologiya baxımından super güc

olan Çin qlobal $CO_2$ emissiyalarının üçdə birini təşkil edir. COP29-dan sonra qarşıda duran ən böyük sual Trampın yenidən ABŞ-nin növbəti prezidenti olub-olmayacağı və daha sonra Trampın əvvəlki prezidentliyi dövründə etdiyi kimi, Bayden dövründəki ABŞ-nin iddialı iqlim siyasətlərini yenidən geri götürməyəcəyi olacaq. Suallar həmçinin Aİ-nin gələcək iqlim siyasətini əhatə edir, çünki maliyyələşdirmə siyasətinin prioriteti təhlükəsizlik və müdafiəyə doğru dəyişir".